# Tariximizi və mədəniyyətimizi tanıdaq!

*Nardar BAYRAMLI*

Azərbaycanın inkişafında, ölkədə həyata keçirilən müasir dövlət quruculuğu prosesində ümumbəşəri prinsip və təcrübə ilə yanaşı, xalqımızın qədim tarixi irsinə, mədəni, mənəvi dəyərlərinə istinad xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, ölkəmizin tarixi, mədəni, elmi irsinin öyrənilməsi və təbliği daim öz aktuallığını qoruyub saxlayır. Azərbaycan özünəməxsus qədim maddi və mənəvi irsi, mədəni dəyərləri olan bir ölkədir. Milli mədəniyyətin qorunması və inkişafı həm də milli dövlətçiliyin möhkəmləndirilməsi deməkdir. Müxtəlif tarixi şəraitlərlə üzləşən Azərbaycan xalqı ana dilinə, adət-ənənələrinə, mədəniyyətinə, ədəbiyyatına, tarixinə, eləcə də milli-mənəvi dəyərlərinə bağlılığı sayəsində bu günədək özünün milli identikliyini, özünəməxsusluğunu qoruyub saxlaya bilib. Bunun nəticəsidir ki, xalqımız tərəfindən əsrlər boyunca yaradılan və yaşadılan milli-mənəvi irsimizin böyük bir hissəsi bu gün cəmiyyət həyatının müxtəlif sferalarında qorunub saxlanılır və dövlətin siyasətində də əksini tapır. Bu nöqteyi-nəzərdən təsadüfi deyil ki, respublikamızda maddi-mənəvi irsin qorunması dövlət tərəfindən həm qanunvericilik, həm də praktik tədbirlər şəklində təmin edilir, milli və dini bayramlar dövlət səviyyəsində qeyd olunur.

Məlumdur ki, minilliklər boyunca Cənubi Qafqaz regionunda yaşayan Azərbaycan xalqı qədim dövlətçilik ənənələrinə, zəngin tarixi keçmişə malikdir. Bununla belə, uzun illər boyu, əsasən də çar Rusiyası və Sovet İttifaqı dönəmində Azərbaycan xalqının dövlətçilik tarixi təhrif olunurdu.

Müstəqilliyimizin bərpa olunması isə tariximizin dəqiq öyrənilməsi və erməni yalanları ilə mübarizəyə geniş imkan yaratdı. Ulu öndər Heydər Əliyevin bu sahədə alimlərin fəaliyyətini dəstəkləməsi, elmin bütün sahələrinin inkişafına dövlət tərəfindən şəraitin yaradılması öz müsbət nəticələrini verdi. Ümummilli Liderin də söylədiyi kimi: “Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu



mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir”.

Müstəqillik dövründə Azərbaycan tarixi ilə bağlı bir çox yeni araşdırmalar aparılıb. Bununla belə, xalqımızın, Cənubi Qafqaz regionunun tarixinin saxtalaşdırılması yönündə erməni təxribatları davam etməkdədir. Bu isə tarixi həqiqətlərin daha geniş işıqlandırılmasına, araşdırmaların nəticələrinin beynəlxalq səviyyədə təbliğinə ehtiyac yaradır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev tarixi irsimizin dərindən araşdırılmasının zəruriliyini öz çıxışlarında dəfələrlə vurğulayıb. Tarixi faktlar da göstərir ki, istər indiki Ermənistan, istərsə də Qarabağ ərazisindəki yer adları Azərbaycan mənşəli, əhalisi isə azərbaycanlılar olub. Həmçinin ölkə başçısının tövsiyəsi ilə İrəvan xanlığı haqqında sanballı elmi əsər yaradılaraq bir neçə xarici dilə tərcümə edilib. Eləcə də, Qarabağın tarixi Azərbaycan torpağı olduğunu tarixi, elmi faktlarla ortaya qoyan əsərlərin də dünya ictimaiyyətinə çatdırılması üçün onların fərqli dillərdə çapı həyata keçirilir. Azərbaycan tarixinin, dövlətçiliyinin öyrənilməsi və təbliği bu günümüz və gələcəyimiz baxımından, eləcə də suveren dövlətçiliyimizin gücləndirilməsi cəhətdən prinsipial əhəmiyyət daşıyır.

Hazırkı dövrdə xalqımızın zəngin tarixinin beynəlxalq aləmə tanıdılmasında elm və mədəniyyət amilinin də mühüm rolu var. Nəzərə almaq lazımdır ki, müasir dövrdə elm, innovasiyalar ölkələrin davamlı inkişaf hədəflərinə nail olunmasında daha çox öz sözünü deyir. Dövlətin mədəniyyət sahəsində də həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsi mədəniyyətimizin beynəlxalq miqyasda təbliğidir. Milli mədəniyyətimizin inkişaf etdirilməsi və dünyaya çatdırılması istiqamətində görülən işlərdə ulu öndər Heydər Əliyevin adını daşıyan Fond da müstəsna xidmətlər göstərir.

Beləliklə, Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin qorunması və təbliği sahəsində olduqca genişmiqyaslı işlər görülür. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasət milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə xidmət edir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti üzrə hazırlanmışdır**